Əlavə 6

**2011-2012-ci dərs ili üçün tədris planlarına dair qeydlər**

1. Valideynlərin və şagirdlərin arzusuna əsasən, müvafiq maddi-tədris baza və pedaqoji kadr potensialı olduğu halda, ümumtəhsil məktəblərində ingilis, alman, fransız, rus, ərəb, fars dillərindən biri xarici dil kimi seçilib tədris olunur.

2. Seçilmiş xarici dilin növbəti siniflərdə dəyişdirilməsinə yol verilmir.

3. Pedaqoji kadr olmaması səbəbindən xarici dil tədris olunmayan ümumtəhsil məktəblərinin V-XI siniflərdə həmin saatlar məktəb pedaqoji şurasının qərarı ilə zəruri hesab edilən fənlərin tədrisinə verilir. Bu halda həmin fənlərdən ixtisaslı pedaqoji kadrların olması nəzərə alınır.

4. Hər birindən ən azı iki ixtisas müəllimi olarsa, valideynlərin və şagirdlərin arzusu nəzərə alınmaqla qruplara bölünən siniflərdə iki xarici dil tədris oluna bilər.

5. Fakültativ və dərnək məşğələsi qrupları şagirdlərin sayı 8 nəfərdən az olmamaq şərti ilə komplektləşdirilir.

6. İxtisaslı kadrları və müvafiq maddi-texniki bazası olan ümumtəhsil məktəblərinin V-IX siniflərində fakültativ, fərdi və qrup məşğələləri üçün ayrılan saatlardan 1 saatı dərs cədvəlinə daxil edilməklə informatika fənninin tədrisinə verilir.

7. VII siniflərdə fakültativ, fərdi və qrup məşğələlərinə ayrılmış saatlardan 1 saatı ikinci yarımildə lYol hərəkəti qaydaları»nın tədrisinə verilir və bu dərslər bütün şagirdlər cəlb olunmaqla fakültativ məşğələ formasında keçilir. VII sinif şagirdlərinin sayı az olan məktəblərdə həmin fakültativ məşğələni təşkil etmək üçün arzularına əsasən, VI, VIII sinif şagirdləri də cəlb oluna bilər.

8. V-XI siniflərdə fakültativ, fərdi və qrup məşğələlərinə ayrılmış saatlardan 1 saatı dərs cədvəlinə daxil olunmamaqla fakültativ kurs formasında şagirdlərin sayı 8 və daha çox olan siniflərdə lHəyati bacarıqlara əsaslanan təhsil» kursunun tədrisinə verilir.

Şagirdlərin sayı 8 nəfərdən az olan siniflərdə həmin kurs sinif təşkilat saatlarında keçilir.

9. Füzuli, Beyləqan, Ağcabədi, Ağdam, Tərtər, Goranboy, Xocavənd, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Ağstafa, Qazax, Kəlbəcər, Laçın, Cəbrayıl, Şuşa, Qubadlı, Xocalı, Zəngilan rayonlarının, habelə Naxçıvan MR-in Ermənistanla sərhəddə yerləşmiş ümumtəhsil məktəblərinin VI siniflərində fakültativ, fərdi və qrup məşğələlərinə ayrılmış vaxt hesabına həftədə 1 saat olmaqla ikinci yarımildə "Mina təhlükəsinə dair maariflənmə" adlı fakültativ kurs tədris olunur.

10. Maddi-tədris baza və ixtisaslı müəllim kadrları olmaq şərtilə şagirdlərin sayı 20 və daha çox olan siniflər aşağıdakı fənlərin tədrisi zamanı iki qrupa bölünür:

10.1. V-IX siniflərdə:

- təlim rus və gürcü dillərində aparılan məktəblərdə Azərbaycan dili;
- bütün ümumtəhsil məktəblərində xarici dil, fiziki tərbiyə, əmək hazırlığı.

10.2. X-XI siniflərdə:

- təlim rus və gürcü dillərində aparılan məktəblərdə Azərbaycan dili;
- bütün ümumtəhsil məktəblərində xarici dil, fiziki tərbiyə dərsləri;
- seçmə fənlərə ayrılan saatlardan 1 saat verilməklə informatika fənninin 2 saat tədris edildiyi məktəblərdə həmin fənn üzrə praktik məşğələlər.

11. Seçmə fənlərə ayrılan saatlar şagirdlərin məcburi dərs yükünə aid olduğu üçün bu "Qeydlər"in 10.1. və 10.2. bəndlərində göstərilən fənlərdən seçmə üzrə komplektləşdirilmiş siniflər təşkil olunarsa, həmin siniflər də mövcud qaydalar gözlənilməklə 2 qrupa bölünür.

12. Kompüter kabineti olmayan ümumtəhsil məktəblərində informatika fənni üzrə praktik məşğələ keçilmir. Bununla belə, informatika fənni üzrə praktik məşğələlərin keçilməsi üçün yaxın ərazidəki kompüter texnikası ilə təchiz olunmuş məktəbin bazasından istifadə edilməsinə icazə verilir. Bu məsələnin həyata keçirilməsi müvafiq təhsil orqanları tərəfindən tənzimlənir.

13. Nazirliyin 21.09.2010-cu il tarixli, 1241 nömrəli əmri ilə təsdiq edilmiş "Gənclərin çağırışaqədərki hazırlığı" fənn proqramına əsasən, tibbi biliklərin əsasları üzrə mövzular oğlan və qız qruplarına bölünmədən bütün sinfə keçilir.

14. Seçmə saatların tətbiqi 2006-2007-ci dərs ili üçün təsdiq edilmiş müvafiq qaydalar üzrə aparılır.

15. Dərs ili 32 tədris həftəsindən ibarətdir. Dərs məşğələləri bütün ümumtəhsil məktəblərində, bir qayda olaraq, sentyabrın 15-də başlayıb mayın 31-də başa çatır. Dərs ili iki yarımilə bölünür:

- Birinci yarımil - 15 sentyabr-29 dekabr
- İkinci yarımil - 06 yanvar-31 may

16. Dərs ili ərzində aşağıdakı tətillər müəyyən edilir:

- 6 gün payız tətili (12-17 noyabr)
- 7 gün qış tətili (30 dekabr-05 yanvar)
- 8 gün yaz tətili (17-24 mart).